# Lect. Əli Əliyev

## Personal Information

**Email:** alialiyev@unec.edu.az
**Web:** https://avesis.unec.edu.az/alialiyev
**Address:** bakıxanov qəsəbəsi

## Biography

Əli İsmayil oğlu Əliyev 1960-cı il təvəllüdlü, azərbaycanlı. Hal-hazırda Azərbaycan Dövlət İqtisad Universitetinin " UNEC Dizayn" məktəbinin baş müəllimidir.

Mən, Əli İsmayıl oğlu Əliyev (Əli İsmayıl Əliyev) 1960-ci ildə anadan olmuşam. 1977-ci ildə orta məktəbi bitirərək, Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq məktəbinə daxil olmuş və oranı 1983-cü ildə "Bədii tərtbat" (Dizayn) ixtisası üzrə bitirmişəm. 1978-80-ci illərdə hərbi xidmətdə olmuşam.

1983-cü ildə M. A. Əliyev adına Azərbaycan Dövlət İncəsənət Universitetinin Rəssamlıq fakültəsinə daxil olmuş, 1989-cu ildə bu ali təhsil ocağını " Qrafika" ixtisası üzrə bitirmişəm.

1989-2003-cü illər ərzində C.Cabbarlı ad. "Azərbaycanfilm" kinostudiyasında- Azərbaycan Animasiya filmləri birliyində quruluşçu rəssam kimi fəaliyyət göstərmiş, bir sıra animasiya filmlərində rəssam, quruluşçu rəssam və rejissor kimi çalışmışam.

1986-cı ildən etibarən 30-dan çox respublika rəssamlıq, qrafika və dizayn sərgilərndə iştirak etmişəm. 1989-cu ildən Rəssamlar ittifaqı gənclər, 2005- ci ildən isə Rəssamlar İttifaqının üzvüyəm. 2002-ci və 2019- cu illərdə Bakıda fərdi yaradıcılıq sərgilərim keçirilmişdir. 2019-cu ildə ümumi yaradıcılığımı əks etdirən albom nəşr edilmişdir. 2023-cü ildə isə "Abşeron rəssamlıq məktəbi" adlı monoqrafiyam AMEA Memarlıq və İncəsənət institutunun qərarı ilə çap edilmişdir.

2000-ci ildən dövlət tədbirlərinin dizayn və tərtibat işlərində iştirak edirəm. Müxtəlif illərdə Bakı şəhər meriyası, Azərbaycan Xarici işlər nazirliyi xətti ilə reklam, dizayn tərtibatı və siyasi plakat ilə bağlı dövlət tədbirlərində xidmətlərim vardır.

2009- cu ildən Azərbaycan Dövlət İqtisad Universitetində "UNEC Dizayn məktəbində" müəllim, hal-hazırda baş müəllim kimi calışıram.

2018- 2021 ci ildə Bakı Xoreoqrafiya Akademiyasında dissertantura təhsili almışam. Bu müddət ərzində müxtəlif beynəlxalq və ölkə konfraslarında çoxsaylı elmi məqalələrlə çıxış etmişəm. Elmi məqalələrim eyni zamanda nüfuzlu elmi jurnallarda çap olunmuşdur. İndiyə qədər ölkə və xarici ölkələrin elmi jurnallarında çap olunmuş on yeddi (17) elmi məqalənin, 1 monoqrafiya və 1 albomun müəllifiyəm.

## Certificates, Courses and Trainings

Innovation, "Distant təhsildə tədrisin təşkili və metodiki təminatı", kurs, 2020
Innovation, "Interactive Education In Univercity Sistems", kurs, 2016

## Metrics